**Sillabus**

| | | |
|---|---|---|
| **Ümumi məlumat** | Fənnin adı, kodu və kreditlərin sayı | **DSN 328 Müasir dizayn tarixi 6 AKTS** |
| | Departament | **Memarlıq və dizayn departamenti** |
| | Proqram (bakalavr, magistr) | Bakalavr |
| | Tədris semestri | 2024/25-ci tədris ilinin payız semestri |
| | Fənni tədris edən müəllim (lər) | Dos. Xəzər Zeynalov |
| | E-mail: | khazar.zeynalov@yandex.ru |
| | Telefon: | +994 50 571 77 41 |
| | Mühazirə otağı/Cədvəl | Neftçilər kampusu, 109-cu otaq<br>V gün 08:30-10:00 10:10-11:40 |
| | Məsləhət saatları | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | Dərsliklər:<br>1. Axundzadə L. XX əsr dünya incəsənəti. Bakı, 2008.<br>History of Modern Design David Raizman First published August 15, 2003<br>2. 100 Years of Color By Katie Greenwood October 15, 2015<br>3. Naïve: Modernism and Folklore in Contemporary Graphic Design Edited by R. Klanten, H. Hellige April 2, 2009<br>4. 20th Century Design: A Decade-by-Decade Exploration of Graphic Style By Tony Seddon December 8, 2014<br>5. Əlili İlahə. XX əsrin birinci yarısında Avropa incəsənət cərəyanları ttps://www.academia.edu/42881681/<br>6. Əkbərova M. Təsviri sənət və onun tədris metodikası. Bakı, 2012.<br>7. Məmmədova M., Əfəndiyeva N., Şahhüseynova S. Mədəniyyət tarixi. Bakı, 2010.<br>8. Hüseynov İ.. Əfəndiyev N. Qədim dünya mədəniyyəti. Dərslik. Bakı, 2009<br>9. Mir-Bağırzadə S. İncəsənət tarixi. Bakı, 2012<br>10. Mir-Bağırzadə S. Etika və estetika. Bakı, 2022.<br>11. Paşayev B.S. Dizayn tarixi (dərs vəsaiti). Bakı, 2015.<br>12. Алленов М. История русского искусства (книга вторая). Русское искусство XVIII – начала XIX века. Москва, 2000.<br>13. Рунге В.Ф. История дизайна, науки и техники. АСТ, Москва, 2006.<br>14. Михайлов С. История дизайна, в 2-х томах. Москва, Союз дизайнеров России, 2003. | |

| | | | |
|---|---|---|---|
| **Kursun təsviri** | Fənnin tədrisi Müasir dizayn tarixi haqqında anlayış, burada tətbiq olunan əsas terminlərin izahı, müasir dizaynın inkişaf tarixi, öyrənilmə metodları nəzərdə tutur. Müasir dizayn tarixinin öyrənilməsinin mahiyyəti və məzmunu, təsnifatı, növləri, müasir dizayn tarixinin xronoloji inkişaf ardıcıllığı, tip və növləri, zaman kontekstində dizayn yenilikləri, kəşflərinin estetikası və psixologiyası, müasir dizayn məktəblərinin xüsusiyyətləri kursun əsasını təşkil edir. | | |
| **Kursun məqsədləri** | **Fənnin məqsədi**:<br>"Müasir dizayn tarixi" fənninin tədrisinin başlıca məqsədi tələbələrə əsasən müasir dizayn tarixinin xronologiyasını, əsaslarını öyrətmək, onların öz ideyalarını formalaşdırmasına kömək etmək və zövqlərinin inkişaf etdirilməsini təkmilləşdirməkdir. Bu fəndə, dünyada son yüz ildə yığılmış böyük dizayn və memarlıq haqqında olan nəzəri materialların praktika ilə necə uzlaşmasına baxılır. Müxtəlif nəzəriyyəçilərin müasir dizaynın yaranması dövrünə və mahiyyətinə baxışları müzakirə olunur və müasir dizayn fəlsəfəsi açılır. Faktlar tarixi inkişaf ardıcıllığı ilə öyrənilir. Müasir dizayna mürəkkəb və estetik mədəniyyətin təzahürünün ahəngi kimi, bədii obraz, mühəndis qrafikası və elmi yeniliklərin sintezi kimi baxılır. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Fənnin ümumi tədrisi prosesində tələbələr:<br>**bilməlidirlər:**<br>- Müasir dizayn tarixi haqqında ümumi baza bilikləri;<br>- Müasir dizaynın xronologiyasını;<br>- Müasir dizaynın növlərini və tiplərini;<br>- Müasir dizaynın xüsusiyyətləri;<br>- Dizaynda elmi-texniki yeniliklər;<br>- Müasir dizayn məktəblərinin üslubi xüsusiyyətlərini tanımaq.<br>**bacarmalıdırlar:**<br>- Dizayner kimi düşünmə qabiliyyəti;<br>- Layihənin işlənməsini, tədqiqatçılıq;<br>- Layihənin hazırlanmasına başlamazdan əvvəl bütün lazımı məlumatları<br>diqqətlə araşdırmağı. | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| | Praktiki məşğələnin təhlili | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Davamiyyət** | | 5 |
| | **Prezentasiya** | | 10 |
| | **Prezentasiya** | | 10 |
| | **Aralıq imtahanı** | | 30 |
| | **Final imtahanı** | | 45 |

| | | | |
|---|---|---|---|
| | **Yekun** | | 100 |

| | |
|---|---|
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Mühazirə, seminar-məşğələ, təqdimat (prezentasiya)**<br>**Mühazirə.** Mövzu ilə bağlı tələbələrə mühazirə oxunur.<br>Qrup müzakirəsi. Tələbələrin keçdiyi mövzuları daha yaxşı başa düşməsi və<br>yadda saxlaması üçün mütəmadi olaraq müzakirələr aparılır.<br>**Praktiki tapşırıqlar.** Tələbələrin mühazirə zamanı əldə etdikləri bilik və bacarıqları təkmilləşdirmək üçün praktiki məşğələlər aparılır.<br>**Praktiki məsələnin təhlili.** Tələbələrin mövzuları nəzəri cəhətdən nə dərəcədə mənimsədiklərini və dizayner kimi düşünərək verilən tapşırığı praktiki olaraq hansı səviyyədə yerinə yetirə biləcəklərini başa düşmək üçün vaxtaşırı sual-cavab edilir, tez həll olunan kiçik həcmli tapşırıqlar əsasında müzakirələr aparılır. Fənn müəllimi tərəfindən Müasir dizayn tarixi haqqında mühazirələr oxunacaq. Seminar-məşğələ dərslərində tələbə keçirilən mövzulara dair hazırlaşır, fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Tələbələrə verilmiş mövzu əsasında onlar sərbəst tədqiqat bacarıqlarından istifadə etməklə, təqdimat hazırlamalı və razılaşdırılmış dərs zamanı təqdim etməlidirlər. Buna nail olmaq üçün tələbə:<br>1)Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;<br>2)Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;<br>3)Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;<br>4)Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;<br>5)Mövzu üzrə verilən tapşırıqları və məsələləri yerinə yetirməklə bilik və bacarıqlara yiyələnməlidir.<br>**Aralıq (30 bal) və final (45 bal) imtahanında** dəyərləndiriləcək.<br>**Prezentasiyaların mütləq tələbə tərəfindən təqdim edilməsi tələb olunur. Bu tapşırığın məqsədi gələcək dizaynerlərin təqdimetmə, qısa müddətdə kiçik araşdırma aparmaq və tərtib etmə vərdişlərinə yiyələnməsidir.**<br>**Aralıq imtahanından** əvvəl sentyabr və oktyabr ayları ərzində prezentasiya təhvil verilməlidir. **Sonuncu dərs həftəsindən sonra təhvil vermək üçün əlavə vaxt verilmir.**<br>**Qeyd:** Prezentasiyalar mütləq fərdi olaraq, tələbə tərəfindən PowerPoint<br>proqramında hazırlanmalıdır, plagiarizmə yol verməməlidir.<br>**İstisna:** Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) işin təhvil mərhələsində iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbə son tarixdən sonra işi təhvil edə bilər.<br>**Davamiyyət**<br>Dərsə davamiyyətə görə verilən maksimum bal 5 baldır. Balın miqdarı əsasən: tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 5 bal verilir. Fənn üzrə semestr ərzində buraxılmış dərs saatlarının ümumi sayı normativ 25%-dən müəyyən olunmuş (xəstəlik, ailə vəziyyəti və s.)həddən yuxarı olduğu halda tələbə imtahan |

| | |
|---|---|
| | sessiyasına buraxılmır və onun haqqında müəyyən qərar qəbul edilir.<br>**İmtahanlar**<br>Aralıq imtahanı sentyabr və oktyabr aylarında tədris olunan mövzular üzrə (verilən prezentasiyanın **təhvilindən sonra)**, final imtahanı noyabr və dekabr ayında tədris olunan mövzular üzrə (verilən prezentasiyanın **təhvilindən sonra**) keçiriləcəkdir.<br>**Fənni bitirmək qaydası**<br>Tələbənin biliyi maksimum 100 balla qiymətləndirilir. Kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbənin davranış qaydaları**<br>Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozmaq və mobil telefondan istifadəsinə icazə verilmir. Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin dərs zamanı tələbələr arasında icazəsiz müzakirələr qadağandır. |

| Cədvəl | | | |
|---|---|---|---|
| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
| 1. | | Müasir dizayn tarixi haqqında ümumi məlumat. | 1. Mühazirə mövzuları (prezentasiya 1).<br>2. Mir-Bağırzadə S. İncəsənət tarixi. Bakı, 2012. S. 6-8.<br>3. Axundzadə L. XX əsr dünya incəsənəti. Bakı, 2008, s. 25-28.<br>4. Алленов М. История русского искусства (книга вторая). Русское искусство XVIII – начала XIX века. Москва, 2000. |
| 2. | | II Dünya müharibəsindən əvvəl dizaynın inkişafı.<br>1940-50-ci illərin dizaynı | 1. Mühazirə mövzuları (prezentasiya 2).<br>2. Paşayev B.S. Dizayn tarixi (dərs vəsaiti). Bakı, 2015, s. 269-307.<br>3.<br>4. Əlili İlahə. XX əsrin birinci yarısında Avropa incəsənət cərəyanları ttps://www.academia.edu/42881681/<br>5. Axundzadə L. XX əsr dünya incəsənəti. Bakı, 2008, s. 5-12 |
| 3. | | XX əsrin birinci yarısında formayaranmada üslub istiqamətləri. | 1. Mühazirə mövzuları (prezentasiya 3).<br>2. Paşayev B.S. Dizayn tarixi (dərs vəsaiti). Bakı, 2015, s. 93-103.<br>3. Əlili İlahə. XX əsrin birinci yarısında Avropa incəsənət cərəyanları ttps://www.academia.edu/42881681/<br>4. Всеобщая история искусств. Том шестой. Искусство 20 века. Книга первая / Под общей |

| | | | |
|---|---|---|---|
| | | | редакцией Б. В. Веймарна и Ю. Д. Колпинского. — 1965. — 843, LXXXVII с., ил. |
| 4. | | Art-Deko. Amerika dizaynının modeli | 1. Mühazirə mövzuları (prezentasiya 4).<br>2. Paşayev B.S. Dizayn tarixi (dərs vəsaiti). Bakı, 2015, s. 240-243; 295-297. |
| 5. | | Sovet dizaynı 1920-1950-ci illər | 1. Mühazirə mövzuları (prezentasiya 5).<br>2. Paşayev B.S. Dizayn tarixi (dərs vəsaiti). Bakı, 2015, s. 367-377.<br>3. Axundzadə L. XX əsr dünya incəsənəti. Bakı, 2008, s. 16-21. |
| 6. | | İkinci dünya müharibəsindən sonrakı ilk onillərdə Avropa dizaynı | 1. Mühazirə mövzuları (prezentasiya 6).<br>2. Paşayev B.S. Dizayn tarixi (dərs vəsaiti). Bakı, 2015, s. 242-267 |
| 7. | | Sovet dizaynı 1950-70-ci illər. Azərbaycanın 1960-80-ci illərdəki dizaynı | 1. Mühazirə mövzuları (prezentasiya 7).<br>2. Əlili İlahə. XX əsrin birinci yarısında Avropa incəsənət cərəyanları ttps://www.academia.edu/ 42881681/<br>3. Axundzadə L. XX əsr dünya incəsənəti. Bakı, 2008, s. 5-12<br>4. Paşayev B.S. Dizayn tarixi (dərs vəsaiti). Bakı, 2015, s. 382-390 |
| 8. | | **Bayram** | |
| 9. | | **Aralıq imtahanı** | |

| | | | |
|---|---|---|---|
| 10. | | Ulm dizayn məktəbi. Bauhauz ənənəsinin davamı. 1960-cı illərin pop-art dizaynı. | 1. Mühazirə mövzuları (prezentasiya 8).<br>2. Paşayev B.S. Dizayn tarixi (dərs vəsaiti). Bakı, 2015, s. 178-201. |
| 11. | | Futurizm (1960-cı illər). Radikal dizayn Antidizayn. | 1. Mühazirə mövzuları (prezentasiya 9).<br>2. Axundzadə L. XX əsr dünya incəsənəti. Bakı, 2008, s. 25-28. |
| 12. | | Postmodern. Yüksək texnologiya dizaynı | 1. Mühazirə mövzuları (prezentasiya 10).<br>2. Mir-Bağırzadə S. İncəsənət tarixi. Bakı, 2012. S. 22-24. |
| 13. | | Yaponiyanın dizayn tarixi | 1. Mühazirə mövzuları (prezentasiya 11).<br>2. Paşayev B.S. Dizayn tarixi (dərs vəsaiti). Bakı, 2015, s. 74.<br>3. Məmmədova M., Əfəndiyeva N., Şahhüseynova S. Mədəniyyət tarixi. Bakı, 2010. S. 127-128. |
| 14. | | Skandinaviya ölkələrində dizaynın inkişafı | 1. Mühazirə mövzuları (prezentasiya 12). |
| 15. | | Dizaynın müasir həyatda rolu. Dizayn və rəqəmsal mühit | 1. Mühazirə mövzuları (prezentasiya 13).<br>2. Paşayev B.S. Dizayn tarixi (dərs vəsaiti). Bakı, 2015, s. 382-395. |
| **Final imtahanı** | | | |